# Salyan cümə məscidi

Əsası 1865-ci ildə Kərbəlayi Əli Əkbər tərəfindən qoyulan Cümə məscidi arxitektura baxımından təkrarolunmaz memarlıq abidəsidir. Salyana gələn qonaqlar bu məscidi Azərbaycanın ən yaxşı memarlıq və arxitektura nümunələrindən biri kimi qiymətləndirirlər.

Salyanın şərəfli tarixini özündə əks etdirən bu abidənin bir hissəsi (16 günbəzdən 9-u) 2003-cü ildə rayonda baş vermiş Kür daşqınları zamanı uçaraq yararsız hala düşmüşdü. 22 fevral 2010-cu ildən Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə 5 saylı elmi-bərpa istehsalat idarəsi tərəfindən məscidin bərpasına başlanılmışdır. Sözü gedən idarənin rəisi Ədalət Məmmədovun verdiyi məlumata görə, bərpa işləri hazırlanmış layihə çərçivəsində aparılacaq.

Məscidi əvvəlki görkəmdə bərpa etmək üçün öz kərpicləri ilə yanaşı, İran İslam Respublikasından da lazımi ölçüdə kərpiclər gətiriləcək. Bərpa işləri xüsusi ustalar tərəfindən aparılacaq. Hal-hazırda məscidin uçulmuş hissəsi torpaq və kərpiclərdən təmizlənib, buradan çıxan kərpiclər səliqə ilə kənara qazılıb qurunt suları xüsusi su nasosları vasitəsi ilə vurulur.

Uçulmuş sütunlar bərpa olunur və şəbəkəli pəncərələr ustalar tərəfindən yenidən yığılır. Milli-mənəvi dəyərlərimizin daşıyıcısı olan bu abidənin bərpası dövlətimizin tarix və mədəniyyət abidələrinə olan qayğısının bariz nümunəsidir.

**Ramin ƏLİYEV**